**İradə Bayramova**
**Dissertant**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**E-mail:** iradabm@mail.ru

# Qacarlar dövrünün qadın geyimlərində ornamental xüsusiyyətlər

**Xülasə:** Məqalə Qacarlar dövründə qadın geyimlərinin bədii xüsusiyyətlərinin təhlilinə həsr olunmuşdur. Müəllif qadın geyimlərinin ornamental xüsusiyyətlərini tədqiqat obyekti kimi seçmişdir. Əvvəlcə, geyim mədəniyyətinin formalaşmasına təsir göstərən amillər aşkar edilmiş, göstərilmişdir ki, bu mədəniyyət ümumilikdə xalqın uzun inkişaf yolu keçmiş maddi-mənəvi mədəniyyətinin tərkib hissəsidir və onun nəticəsidir. Geyim mədəniyyətinin özünəməxsusluğunu şərtləndirən amillər içərisində isə ornamentlər ön sıralardadır. Ornamentlər tək geyim mədəniyyətində deyil, həm də memarlıqda, dekorativ-tətbiqi sənətdə də geniş istifadə olunur. Məqalədə qadın geyimlərində ornamentin işlənmə yeri, çalarları, məqsədi və s. məsələlər öyrənilmişdir.

**Açar sözlər:** Qacar, geyim, qadın, üslub, forma, bədii ifadə, ornament

Geyimlər xalqın tarixi ilə sıx əlaqədə olaraq onun mədəniyyətinin öyrənilməsində əhəmiyyətli rol oynayır. Maddi mədəniyyətin əsasında dayanan geyim mədəniyyəti daha çox xalqın milli xüsusiyyətini özündə əks etdirir. Geyimlər xalqın arasında mədəni-tarixi əlaqə və qarşılıqlı təsir məsələlərini müəyyənləsdirmək işində yardımçı material rolunu oynamaqla xalqın həm təsərrüfat sahələrinin səviyyəsindən və həm də coğrafi şəraitdən aslıdır. Xalq yaradıcılığının tarixi, etnoqrafik və bədii xüsusiyyətləri öz əksini geyimlərdə tapır. Bu xüsusiyyət həm müəyyən formalı geyim və onun bəzəklərində həm də bədii tikmə, toxuma və toxuculuqda özünü büruzə verir. İran geyimləri də uzun sürən və çox mürəkkəb inkişaf yolu keçmiş olan xalqın maddi-mənəvi mədəniyyətinin nəticəsidir.

Qacarlar dövrü qadın geyim xüsusiyyətlərini şərtləndirən amillər sadəcə onların biçim formasını deyil, eyni zamanda ornamental xüsusiyyətlərinin əsaslarına görə də milli və yaxud digər təsirlərə məruz qalan xarakterikliyini səciyyələndirirdi. Memarlıqda, dekorativ-tətbiqi sənətdə və geyim kompozisiyasında dekor işlərini görmək üçün istifadə olunan ən geniş yayılmış kompozisiya quruluşu növlərindən biri hesab edilən ornamentin Qacar geyim kompozisiyalarındakı istifadəsi onların xüsusiyyətini, eləcə də mədəniyyət və incəsənət ənənələrinin bilavasitə göstərdiyi təsirləri ifadə edir (1, 15).

Əlində qızılgül tutan hərəmin geyim tərzində ifadə etdiyi əlvan və şuxluq məhz parçanın ornamental xüsusiyyətləri ilə özünü göstərir. Burada buta elementinin simmetrik sıralanması və digər bəzək elementlərinin sintezi ətəyin ifadəli görüntüsünü meydana çıxarmışdır.

Ümumiyyətlə, ornamentdə kompozisiyanın digər növlərindən fərqli olaraq statika və dinamika, təzad, çalar, simmetriya və asimmetriya, ölçü və ritm kimi kompozisiya vasitələrinin təsirini daha yaxşı izləmək və ifadə imkanlarına əmin olmaq mümkündür (2, 145). Ornamental kompozisiyalar əhəmiyyətinə görə zəngindirlər və mərasimi, simvolik, əməli, stilistik kimi çoxlu məna funksiyalarına malikdirlər. Xalq yaradıcılığı ornamenti dekorativ-tətbiqi sənətlə insanların obrazlı mifik düşüncə quruluşunun yaxınlığını göstərir. Müxtəlif xalqların incəsənət mədəniyyətində ornamental kompozisiyaların istifadə dairəsi genişdir. Əşyaların formasında və onların ornamentikasında xalq estetikasında idealları əks olunmuşdur. Ornament dekorativliyin ən ifadəli vasitələ¬rin¬dən biri olub və eyni zamanda müxtəlif və dərin məzmun daşıyır. Bu mənada qeyd edilən nümunədə istifadə edilən ornamentallığın estetik mahiyyət daşıması diqqəti cəlb edir. Ətəyin tünd yerliyi üzərində verilmiş butalar hər bir sırada ondan əvvəlkinin əks istiqaməti üzrə parçaların sonuna qədər davam etdirilmişdir. Butaların daxili hissəsində çiçəklərin real formalarla həlli eyni ilə bütün buta detalında təkrarlanır. Burada əsas bəzək şaquli istiqamətdə təkrarlanaraq rapport şəbəkəsi əmələ gətirmiş və nəticədə statiklik əldə edilmişdir.

Geyimdə istifadə edilən bədənin çılpaqlığını üzə çıxaran şəffaf köynəyin üzərindən geyinilən arxalıq isə yerliyinin çəhrayı rəngdə olaraq üzərində olduqca incə zolaqların aralıqlarında həndəsiləşdirilmiş yarpaq elementinin istifadəsində həyata keçirilmişdir.

Qacar dövrü geyimlərinin digər bir nümunəsində də əsas bəzək elementlərinin ətəyin üzərində geniş alması diqqəti cəlb edir. Doğrudur, köynəyin də üzərində olduqca zərif ornamental həll nəzəri cəlb edəcək qədər estetikliyi nümayiş etdirir. Lakin yaranmış təzadlı münasibət onların ornamental həlli ilə bağlı da fərqli əlaqləndirmənin uğurla sintez edilməsindən xəbər verir (3, 6).

Ətəyin tünd yaşıl yerliyi üzərində verilmiş qırmızı butaların kontur xətləri də tünd qırmız çalarda olduğu üçün parça üzərində rənglərin zərif birləşməsini meydana çıxarmışdır. Butaların daxilində incə və xırda ləçəkli güllərdən istifadə edilmiş, kənarlara da çıxan nəbati bəzək detalları ilə birləşərək harmonik ifadə yaratmışdır. Harmonik və proporsional qaydalara tabe edilmiş ornamental həll parça üzərində riyazi dəqiqliklə həll olunmuşdur. Ətəyin aşağı hissəsində isə bir qədər enli düz sarı-qızılı tonda zolaq var ki, burada ornamental həll sadə yarım üfüqi xətt zolaqlarının sistemli sıralanması ilə

yaranan haşiyə daxilində incə çiçək elementlərinin yerləşdirilməsi xoş görünüş meydana gətirir.

Köynəyin bədii həllində istifadə edilmiş ornamentallıq daha zərif formalarla nəzərə çarpır. Burada həndəsi və nəbati elementlərin sintezli həllində ən incə məqamların istifadəsi sarı yerliyin üzərində ona yaxım qızılı tonlarla yerinə yetirilməsidir.

Qacar dövrü rəngkarlıq nümunələrindən birində təsvir edilmiş qadın obrazının libas şəkli zamanın geyim tərzi və onun parça üzərindəki ornamental həlli haqqında daha aydın məlumat verir. Düz şalvar tipli geyimin həndəsi formalardan ibarət həlli ornamental xüsusiyyətinə görə elementlərin həm şaquli, həm də üfüqi sıralanması ilə şəbəkə rapportu əmələ gətirmişdir. Burada enli zolaqlar yaşıl və narıncı yerliyin bir-birini təkrarlaması ilə həyata keçirilmişdir. Yaşılın üzərində beşbucaqlı həndəsi formanın daxilində mərkəzdə ağ nöqtə və ondan ətrafa yayılan rəng qamması tündləşməyə doğru davam etdirilir. Çəhrayı tonlu zolağın üzərində isə arı pətəyini xatırladan torşəkilli ifadə bütün haşiyə boyu parçanı əhatələməkdədir.

Bədənə kip oturmuş, aşağıya doğru bir qədər enliləşən, eləcə də qol hissələri trapes kəsimli olan köynəyin üzərindəki bəzəklər isə eyni qızılı rəngli xırda çiçəyin bütün parça boyu paylanması ilə həyata keçirilmişdir. Sinədən asılan qalstuk tipli elementin qızılı çaları, eləcə də kənar hissələr istifadə edilmiş eyni rəngin zərif haşiyəsi geyimin görünüşünü forma ilə ornamental xüsusiyyətlərin birləşməsi nəticəsində estetik şəkildə təqdim edir.

Bütün tarixi dövrlər və xalqlarda olduğu kimi Qacarlar zamanında da hər bir təbəqə, fərqli məşğuliyyəti olan insanların özünəməxus, onların aidiyyəti yerə malikliyini müəyyən edən geyim tərzi var idi. Saray musiqiçiləri, rəqqasələrin geyim tərzində də bu münasibətləri ayrıca olaraq görmək mümkündür. Bunlar miniatürlər və Qacar rəngkarlığının bu günə qədər qalan nümunələri əsasında da geniş məlumat verir.

XIX əsrin I rübünə aid saray rəqqasəsinin geyim tərzi əlvan, qırmızı, sarı və s. kimi şux rənglərin həllində meydana gəlmişdir. Məxmər parçadan olan enli ətəyin üzərində istifadə olunan parlaq rəngarəng çiçəklər stilizə edilmiş bitki motivləri əsasında öz dağınıqlığı ilə şuxluq yaratmışdır ki, bu da rəqsin dinamik qəbul edilməsində öz təsirini göstərirdi.

Yaxalıqda istifadə edilən qırmızı yerliyin üzərində isə sadəcə kənar hissələrdə verilmiş sadə nöqtələrin sıralanması ətəyin daha qabarıq ornamentallığının üzə çıxarılmasına imkan yaratmışdır. Rəssam rəqqasəninin ifasını yerə sərilmiş xalça üzərində tərənnüm etmişdir. Buradakı harmonik ifadə eyni zamanda xalça üzərində zərif nəbati elementlərin xarakterik olaraq geyim xüsusiyyəti ilə əlaqələndirilərək milli ornamentallığın ifadə edilməsidir.

Kastanetlərlə rəqs edən saray rəqqasəsinin geyim tərzi bundan əvvəlki nümunədən tamamilə fərqlənir. Bu fərqliliyi ilk olaraq birinci əsərdəki daha dinamik, digərində isə bir qəsdən asta oyun tərzi ilə izah etmək olar. Qeyd edilən təsirlərin bədii ifadəsində forma və geyim tərzi ilə yanaşı, həm də ornamental xüsusiyyətlərin də böyük rolu danılmazdır.

Sarı tonda olan ətəyin üzərindəki bəzək elementləri eyni çalardan olaraq onun daha zərif formada həll edilməsində əsas hesab edilmişdir. Ətəyin aşağı hissəsində verilmiş haşiyənin daxilində həndəsi motivlərin yaratdığı şaquli rapport şəbəkəsi xırda dilikli haşiyə altında ağ çalarda olması ilə geyimin daha zövqlü bədii ifadəsini meydana çıxarmışdır. Ətəyin sonluğunda istifadə edilən bu xüsusiyyət fərqli düzülüş və rapportlarda yaxalığın qollarında boğaz hissəsində, eləcə də baş bəzək geyimində verilmişdir.

Belə bağlanmış şal tipli bəzək detalının narıncı yerliyi üzərində verilmiş ornamentasiya isə heraldik ornament xüsusiyyəti daşıyır, motiv kimi işarələr, emblemlər, gerblər, "trofeylər" və qalxanlar, yaraqlar, bayraqlar və s. hərbi sursatlar təsvirindən istifadə edir. Qeyd edilən nümunədə heraldik ornamentdə tez-tez rast gəlinən motivlər göstərilmişdir.

Saray rəqqasəsinin obrazını canlandıran digər bir nümunədə onun yenə də tünd ətək və açıq rəngli köynəyi üzərində verilmiş ornamenti həll geyimin dinamizmini qabarıq şəkildə meydana çıxarmışdır. Tünd qırmızı məxmər parça üzərində verilmiş yaşıl nəbati elementlər stilizə edilmiş formalarla canlandırılmış, sistemli şəkildə deyil, dağınıqlığın harmoniyası ilə ifadə edilmişdir. Burada çiçək, yarpaq və budaqların hamısı yaşılın eyni çalarında verilmişdir.

Ətəyin aşağı haşiyəsində isə qızılı tonda verilmiş yerlik üzərində xətti və nöqtəli ifadələrin sistemli təkrarlanması onun haşiyə zolağını yaratmışdır. Həmin hissənin üzərində ensiz dilikli daha kiçik haşiyə zolağı verilməklə əsas və sonluq arasındakı təzadı xüsusi olaraq önə çıxarmışdır.

Ornamentallığın məkan həllində də verilməsi şəbəkəli rapport və digər rəng harmoniyasını ifadə edərək dövrün ornamental xüsusiyyətlərini bütövlükdə səciyyələndirir. Qol bəzəklərində istifadə edilən gümüşün üzərində həndəsi formaların yaratdığı oenamenatllıq eyni zamanda onun forması ilə əlaqələndirilmiş şəkildə həll edilmişdir. Ornamentdə təbiəti yaradıcı surətdə dəyişən insan fəaliyyətinin estetik dərki təsvir edilmişdir. Cadugərlik və dini təyinatlı işarələrin, simvolların və stilizə edilmiş təsvirlərin geniş istifadə edildiyi ən qədim ornamentlərin mərasimi və magik rolu əhəmiyyətlidir (4, 56). Zaman keçdikcə qədim ornamental kompozisiyalar öz ilkin ovsunlayıcı məzmununu itirərək dekorativ ifadəliliyini saxlayıblar. Qeyd edilən dövr üzrə qadın geyim xüsusiyyətləri nə qədər fərqli, özünəməxsus təsir bağışlasa da onların təhlili zamanı üzə çıxan səciyyəvilik daha çox nəzəri cəlb edir. Bunu

XIX əsrin I rübünə aid edilən qızılgül tutmuş hərəmin portret təsvirində bir daha aydın görmək mümkündür. Məsələn, bundan əvvəlki nümunələrdən fərqli olaraq burada ətək daha düz və bir rəngdə verilmişdir. Lakin çiyin və qollarda istifadə edilmiş ornamentasiya demək olar ki, digərləri ilə oxşarlıq təşkil edir. Sadəcə kiçik detal dəyişikliklər aradakı fərqi göstərir. Məsələn, burada çiyinlərdə verilmiş bəzəkli forma sinənin üzəri ilə davam edilərək digər çiyinlə birləşir. Burada yan hissəsi əyri kəsiklərdən istifadə edilmiş həndəsi formanın aralıqlarına verilmiş yuvarlaq, nöqtəli bəzəkli təsvirlər ümumi xüsusiyyətləri özündə birləşdirir.

"Sevgililər" adlı nümunədə qadın geyimində istifadə edilən parça üzərində verilmiş ornamentasiya üfüqi formada yayılaraq rapportlu şəbəkə meydana gətirmişdir. Burada simmetrik qanunlar da diqqəti cəlb edərək harmonik ifadə yaradır. Əsaən nöqtə və xətti elementlərin yaratdığı ornamentasiya detalların sistemli düzülüşü ilə həll edilmişdir.

Yaşıl ətəyin üzərindəki bəzəkli təsvirlər isə yaxa hissədən fərqli olaraq tünd yerlik üzərinə zərif qırmızı tondan yaradılmış çiçək təsvirlərinin real formasında pərakəndə atışları ilə həyata keçirilmişdir. Nəbati motivi bitki və onun hissələrinin – yarpaqların, çiçəklərin və meyvələrin stilizə edilmiş təsviridir. Müxtəlif tarixi dövrlərdə ornamentdə istifadə olunan bitki formalarının elementləri az və ya çox dərəcədə işlənmiş, sadələşdirilmiş, stilizə edilmiş təsvir olunmuşdur. Çox güman ki, bu, ornamental kompozisiyanın həndəsi janrdan sonra ən geniş yayılmış janrıdır. Özünəməxsus şəkildə ifadə edilmiş bu ornament qeyd edilmiş nümunədə dövrün bütün dekorativ-tətbiqi sənət növlərində istifadə edilən bəzək xüsusiyyəti kimi əhəmiyyət daşıyır.

Ümumiyyətlə, hər bir dövr, hər bir üslub, hər bir milli mədəniyyət öz ornament sistemlərini hazırlamışdır, ona görə də əminliklə demək olar ki, ornament müxtəlif mədəni təbəqələrin bədii ənənələrini bütünlüklə əks etdirir. Qacar dövrünün XIX əsrin əvvəllərinə aid olan əsərlərdən birində hərəm və onun qulluqçusunun təsvirində təbəqələşmədə geyim tərzinin fərqli xüsusiyyətlərini göstərsə də onların hər ikisində milli xarakterik xüsusiyyətlərin mövcud olması diqqəti cəlb edir. Bu təbii ki, birbaşa geyimdə istifadə edilən parçaların üzərindəki bəzək elementlərinin ifadəsi ilə də özünü göstərir.

## Ədəbiyyat:

1. Məhəmmədrza Qəffari Nəmin. Qacarlar dövrü rəngkarlığının bədii xüsusiyyətləri: sənətşün. üzrə fəls. d-ru a. dər. al. üçün təq. ol. dis.: Bakı: 2010.
2. Məmmədova İ. XIX-XX əsrin əvvəllərində Təbriz şəhər əhalisinin baş geyimi //Azərbaycanın Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası. 2014. №3. S.143-149.

3. Ələkbərov F. Azərbaycan türklərinin son imperiyası: Qacarlar dövləti // Türküstan. 2016. 4-10 oktyabr. S.6.
4. Каджар Ч. Искусство Азербайджана Баку: 2010. 348 с.

## Орнаментальные особенности женской одежды Каджарского периода

**Резюме**

Статья посвящена анализу художественных особенностей женской одежды в Каджарский период. В качестве объекта исследования автор выбрал орнаментальные особенности женской одежды. Прежде всего, были выявлены факторы, влияющие на формирование культуры одежды, было показано, что эта культура в целом является неотъемлемой частью материальной и духовной культуры людей, которая имеет долгую историю развития и является ее результатом. Среди факторов, определяющих уникальность культуры одежды, украшения находятся на переднем плане. Орнаменты широко используются не только в швейной культуре, но и в архитектуре, декоративно-прикладном искусстве. В статье описывается место, оттенки, назначение и т.д. орнамента в женской одежде.

**Ключевые слова:** Каджар, одежда, женщина, стиль, форма, художественное выражение, орнамент

## The ornamental features in the female clothing of the period of Qajars

**Summary**

The article is devoted to the analysis of the artistic features of female clothing in the period of Qajars. The author chooses the ornamental features of female clothing as an object of the research work. At first, the factors affecting the formation of clothing culture are revealed and shown that this culture is an integral part of the long way of development of the people's material and spiritual culture in general and its result. Among the factors that determine the uniqueness of the clothing culture the ornaments are in the front rows. The ornaments are used widely not only in clothing culture, but also in architecture, decorative-applied art. In the article some problems such as the place, shades, purpose and others are investigated.

**Key words:** Qajar, clothing, woman, style, the artistic expression, ornament